

*Hüseyn SÖZLÜ*

## NECƏ GƏLİM

Tanrı, sənin dərgahına
Heç bilmirəm necə gəlim?
Sən olan yerdə vaxt yoxdur,
Gündüz gəlim, gecə gəlim?

Gül idim, çəməndə bitdim,
Damlaydım, dəryada itdim.
Heçiydim, hər şeyə yetdim,
Yenə dönüm heçə gəlim?

## MƏNƏ YAZILIB

Dünyanı yalan tutubdu,
Düz olmaq mənə yazılıb.
Çinəsində çalın-çarpaz
İz olmaq mənə yazılıb.

Pisi görcək tanıyıram,
Amma yenə sınayıram.
Haqsızlıq görüb yanıram,
Köz olmaq mənə yazılıb.

Yalanlara sinə gərdim,
Pislikləri yuyub sərdim.
Hər kəsin deməkçün dərdin
Saz olmaq mənə yazılıb.

Əyridi çox sözün himi,
Bilmirəm qınayım kimi.

Şair Hüseyn Sözlü kimi
Söz olmaq mənə yazılıb.

## SÖZLƏRİM

Xəyalımla baş-başayam,
Sınağa çəkir sözlərim.
Qələmi ələ alıram,
Varağa köçür sözlərim.

Mənəm sözdən gül toxuyan,
Hər sətri ətir qoxuyan.
Pıçıltısı eşq oxuyan,
Bulağa köçür sözlərim.

Gül üstə bülbülün səsi,
Tutub dünyanı naləsi.
Gələndə bahar nəfəsi,
Budağa köçür sözlərim.

Ziləm, səsim bəmə sığmır,
Aşiq bu aləmə sığmır.
Sözlüyəm, sinəmə sığmır,
Dodağa köçür sözlərim.

## DÜŞÜBDÜ

Yenə xatirələr çəkib keçmişə,
Alnındakı tel yadıma düşübdü.
Sorağınla dönmüşəm bir dərvişə,
Kəmər sıxan bel yadıma düşübdü.

Sonamsan, gəzirəm göl qırağında,
Yandıqca yanıram eşq çırağında.
Lalətək açılmış nəm dodağında,
Sübh çağında gül yadıma düşübdü.

Yolunda gözləri çırağa dönən,
Əlimdə qələmə, varağa dönən.
Sözlünün saçında varağa dönən,
Şümşad barmaq, əl yadıma düşübdü.

## KÜSMƏDİM Kİ MƏN

Həyatda üzümə bəxt gülməliydi,
Başqa gülməyəndən küsmədim ki mən.
Zaman gülməliydi, vaxt gülməliydi,
Halım bilməyəndən küsmədim ki mən.



Sözlü bu zamanda çaş qalıb artıq,
Görən yaşanmamış gün qalıb artıq?
Süfrəmin kənarı boş qalıb artıq,
Bizə gəlməyəndən küsmədim ki mən.

## ƏSƏNDƏ ÖMRÜMƏ PAYIZ YELLƏRİ

Əsəndə ömrümə payız yelləri,
Dilim bircə kəlmə danımadı ki.
Yaşadım bir təhər keçən illəri,
Könlüm bu illərlə barışmadı ki.

Əzəldən yaxşıya yazılmadı baxt,
Qeyb oldu yaxşılıq, dağıldı tifaq.
Sözlüdən haqq-hesab soruldu hər vaxt,
Kimsə günahını soruşmadı ki.

## MƏNİ

Dünya ovçu kimi pusquda durub,
Hər an bərəsinə səsləyir məni.
Allah, nələr varmış fitnə-felində,
Ölüm dərəsinə səsləyir məni.

Sözlü üçün bu gün vardır bir seçim,
Hazırdır, yır-yığış edibdir köçüm.
Bəndətək torpağa qarışmaq üçün,
Bir daş kölgəsinə səsləyir məni.